ədəbiyyat QƏZETİ №4
4 30 yanvar 2026-cı il

# Azərbaycan Yazıçılar Birliyinin Mətbuat Xidmətindən

Azərbaycan Yazıçılar Birliyinə hücum kampaniyası davam edir, vaxtaşırı qızışdırılır, bəzi saytlarda və elektron resurslarda əsassız, heç bir real fakta söykənməyən informasiyalar tirajlanır və bütün bu baş verənlərin arxasında Azərbaycan ədəbiyyatının və dilinin, mənəviyyatının heysiyyətini qoruyan, yazıçı və şairlərimizin ən qocaman peşəkar ocağı olan təşkilatı hörmətdən salmaq kimi məkrli niyyət dayanır. Həmin dırnaqarası saytların sırasına **www.citypost.az** da qoşulub.

Azərbaycan Yazıçılar Birliyinin katibliyi bu işlərin və bu kampaniyanın "qədim və yeni təşkilatçıları" barədə yetərincə məlumatlıdır. Rəsmi olaraq bildiririk ki, onun sıralarını könüllü olaraq tərk etmiş adamlar zamanında bunu ədəbiyyata və ədəbi prosesə baxış fərqləri ilə izah etmişlər. Birliyin katibliyinin qərarı ilə üzvlükdən xaric olunanlarla bağlı isə zamanında tərəfimizdən açıqlama verilmişdir və biz yenidən bu məsələlərə qayıtmaq niyyətində deyilik.

Amma aydınlıq olsun deyə qısaca bir neçə şeyi söyləməyi lazım bilirik. Adları hallandırılan ədiblərin sırasında Aqşin Yenisey kimi elə şəxslər də var ki, onlar heç vaxt Birlyin üzvü olmamışlar. Guya həbsdə dünyasını dəyişmiş, Yardımlıdan olan Azad adlı AYB üzvü barədə məlumatlar yalandır. Saday Şəkərli ilə AYB arasında hər hansı məhkəmə çəkişməsi olmamışdır. Ramiq Muxtar və İlham Qəhrəman AYB-yə böhtan atdığına görə onlarla münasibətlər hüquq müstəvisində həll olunmuş, məhkəmənin hökmü ilə onların hər ikisi barədə cərimə tətbiq edilmişdir. Fəzail İsmayıl AYB aparatının işçilərinə şər atmış, əsassız fikirlərini sübuta yetirə bilmədiyinə görə üzvlükdən xaric edilmişdir.

Bildiririk ki, AYB üzvlüyünü tərk etmiş və yenidən birlik sıralarına qoşulmaq istəyən ədiblər də olmuşdur ki, AYB rəhbərliyi belə müraciətlərə daim humanist yanaşmışdır.

Birlik haqqında, onun rəhbərliyi və məsul işçiləri barədə qarayaxma kampaniyası aparan şəxslərin diqqətinə çatdırırıq ki, onların həm keçmiş, həm indiki şər əməlləri ilə bağlı tərəfimizdən yaxın vaxtlarda hüquq-mühafizə orqanlarına müraciət ediləcəkdir.